# Araz boyda sevgisi var Arazın...

**Cənub diyarımızın Sulduz şəhərindən parlayan ulduz – dünyaca məşhur azərbaycanlı ozan Araz Elsəsin Bakıda olduğu sonuncu gün redaksiyamıza qonaq gəlmək təklifinə məmnuniyyətlə yanaşması hamımızı sevindirdi. Son dəfə üç il əvvəl Azərbaycana qısa səfər etmiş Araz bu dəfə Bakıda bir qədər çox qalsa da, proqramı gərgin idi, odur ki, yoladüşmə ərəfəsində bu görüşə razılıq verməsinə şad olduq.**



Bakıda meydan hərəkatı dövründə tanınan Araz bəyin səsi ilə yumruqlar sıxılır, azadlıq eşqi kükrəyib daşır, yüz minlərlə adamın gözləri işıqlanırdı. Sonra biz müstəqillik qazandıq. Necə deyərlər, çox sular axdı, duruldu. İranda isə Vətən sevgisi müqəddəs amalı olan Araz Elsəs milləti özünə qaytaran, ayağa qaldıran musiqisinə görə təhdidlərlə, təqiblərlə üz-üzə qalıb və mühacirət etməli olub.

Musiqini həyatının bir parçası sayan Araz Elsəs bu vasitə ilə elinin, ulusunun səsini dünyaya yayır, ayrılıq həsrətini ovudur. Hazırda İsveçdə yaşayan ünlü soydaşımızın orada öz şirkəti var, yəni dolanacağını təmin edə bilir, türk oğlu türk olaraq kimsəyə əyilmir. Həm İsveçdə, həm də digər Avropa ölkələrində vaxtaşırı konsertləri isə qazanc üçün deyil, milli ruhumuzun təbliği üçündür. İlk növbədə o, bizim xaricdəki mədəni-mənəvi təmsilçimizdir. Verdiyi konsertlərdə Cənubi azərbaycanlılar da, farslar da həvəslə iştirak edirlər.

Ünlü soydaşımız Qalib Azərbaycan adlı məbədgahını, sınaqlardan mətanətlə çıxan möhtəşəm varlıq abidəsinin növbəti ziyarətinə həddsiz sevinir. Bu, onun işıqlı çöhrəsindən oxunur. Özünün bu barədə dedikləri:

– Bütün bunlar bizim üçün qürurvericidir. Azərbaycan dik duruşu olan güclü bir dövlətdir. Bu, millətdən gələn gücdür, onun inamından gələn gücdür. 44 günlük savaş millətimə qürur verdi, güc verdi, inam verdi. Hər kəs bu savaşda "Vətən!" deyib, canından keçməyə hazır idi. Mən həmin igidlərimizə eşq olsun deyirəm, bu Vətən üçün canından keçməyə hazır olan və keçən qızlarımıza, oğullarımıza, bütün Azərbaycanımıza halal olsun deyirəm. Qarabağa səfərim, Xudafərində olmağım, media nümayəndələrimizlə, can dostlarımızla görüşlərin hər biri qəlbimdə dərin izlər qoydu. Üstəlik, bir qədər sonra Bakıda böyük bir konsert proqramı ilə çıxış etməyimlə bağlı planlarım var. Bax, onda daha gur səslə oxuyacaq, musiqi dili ilə "Can Vətən!" deyib hayqıracağam.

**– İnşallah, gələn dəfə bir daha sizinlə adını daşıdığınız və artıq işğaldan azad edilmiş Arazın sahilinə də gedərik, ulu Xudafərin körpüsünün yanında sazlı-sözlü gözəl bir çıxış edərsiniz.**

– Yaxşı olar. Bu arzu məndə həmişə olub. 44 günlük savaşdan sonra hesab elədim ki, əsl məqam məhz bu vaxtdır. Məncə, bu cür məsələlər indi daha vacibdir. Üstəlik, bu cür konsertlər Güneydə olan hadisələrə, eyni zamanda, gələcəkdə bölgədə baş verəcək digər hadisələrə mənəvi təkan, dayaq ola bilər. Bildiyiniz kimi, mənim konsertlərdən məqsədim sadəcə insanları nəşələndirmək, əyləndirmək deyil. Milli məsələlər, ideoloji məsələlər və digərləridir əsas amalım. Xüsusən bugünlərdə İranda baş verən hadisələr... Hər kəs bacardığı qədər mənəvi dəstək verməlidir. Artıq ox yaydan çıxıb və onun hədəfdən yayınmaması gərəkir. Azərbaycanın bütövlüyü yetişmiş məsələdir. Dövlət olaraq, millət olaraq biz bu prosesə hazır olmalıyıq, inanmalıyıq. Hər şey inamdan doğulur.

...Ozan Araz Elsəsin həyəcan dolu çıxışı bizi yetərincə duyğulandırdı. Sidq-ürəklə qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasət dünya azərbaycanlılarına ruh verir. "Mən bu siyasətə canımla, qanımla dəstək verməyə hazıram. Azərbaycan 44 günlük savaşda necə bir yumruq oldusa, o cür də böyük ideyalarla yaşamaqda davam lazımdır".

**Ona Bakıda sazını həyəcanla sındırdığını da xatırlatdıq.**

– Bəli, - dedi, - deyəsən, 1994-cü il idi. Arif Məlikovun müəllif gecəsi idi. Allah rəhmət eləsin, Heydər Əliyev də orada idi. Mən Arif Məlikova həsr elədiyim, əslində 20 Yanvar mövzusunda yazdığım mahnını ilk dəfə oxudum. Sonunda "Əli qanlı cəlladları mən ittiham edirəm, bu mahnını qanlarından keçənlərə ithaf edirəm" deyincə çox həyəcanlandım, Təkrarən "İttiham edirəm!" deyib də sazı vurdum dizimə və nəticədə saz parçalanıb düşdü səhnəyə. Bu mənim həyatımda çox-çox böyük hadisələrdən biri oldu. Arif Məlikov məni elə qucaqladı ki, köksünün istiliyini, əllərinin titrəyişini kürəyimdə hələ də hiss edirəm. Ulu öndər çıxışında dedi ki, gənc azərbaycanlı Arazın çıxışı mənim həyatımda böyük hadisədir. Bu, mənim üçün böyük dəyərdir. O gecənin səhəri Türkiyədən mənim üçün hətta saz da gətirildi.

**...Ozan Araz Elsəsin hazırkı yaradıcılığı barədə suala cavabı da maraqlı oldu.**

– Mən türk olmağımı bir kültür kimi dəyərləndirirəm, təqdim və təbliğ edirəm. Düşüncəmə görə, bu kültürü sevdirmək borcumuzdur. Son vaxtlar yazdıqlarımda Azərbaycanın ayrılığı da var, bütövləşməsi də, türkçülüyümüz də, kültürümüz də və mən bunu car çəkməkdən qürur duyuram. Duymamış olmazsınız, "Atlar" adlı mahnım var. Onu bu yaxınlarda çığatay türkcəsində ifa eləmək niyyətindəyəm. Bu, həm də mahnıya yeni nəfəs verməkdir. Üstəlik, mahnıya ağız qopuzu ilə rokun birləşdirilməsini də əlavə edəcəyəm.

**– Bəs, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Araz Elsəsin könlündən nə keçir?**

– Millətimiz aydınlıqdan yana olsun! Azərbaycanın bütövlüyünə mütləq şəkildə inanmaq və yürümək lazımdır. Zəkamızda, duyğu və düşüncəmizdə bunu böyütmək, inkişaf etdirmək lazımdır. O gün bu gündür! Azərbaycan 44 günlük Zəfər Yürüşündə necə bir oldu, necə yumruğa döndüsə, dünya gördü, aləm gördü. Bu heyrətamiz idi. O düşüncə ilə böyük istiqbalımız, yaxın istiqlalımız naminə düşünmək, daşınmaq, idealları irəli daşımaq, yaşamaq lazımdır.

...Sonda ozan Araz Elsəs müəllifi olduğu "Qurtuluş yolçusuyam!" mahnısını qara sazının tellərdən od qoparan sədaları altında səsləndirdi. Güney Azərbaycan türklərinin hüquqlarının müdafiəsində xidmətlər göstərən və türk mədəniyyətinin təbliğində fəallığını əskiltməyən Araz Elsəsə gül dəstəsi verildi, onunla xatirə şəkilləri çəkdirildi.

**Əli NƏCƏFXANLI**
**"Xalq qəzeti"**